**Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik.**

**Heydər Əliyev**



# Müasir ictimai həyatda din və mənəviyyat problemləri

Qloballaşma və yeni iqtisadi münasibətlər şəraitində fəlsəfə, din və əxlaqın yenidən nəzərdən keçirilməsinə və onların insan həyatında rolunun müasir tələblər baxımından dəyərləndirilməsinə böyük ehtiyac var. Akademik Ramiz Mehdiyev "Qloballaşma dövründə dövlət və cəmiyyət" məqaləsində diqqəti məhz dini dəyərlərin ictimai həyatda rolu, habelə dinin böyük mənəvi təsir gücündən sui-istifadə hallarına qarşı mübarizənin əhəmiyyəti məsələlərinə yönəldir və indiki dövrdə bu problemin aktuallığını xüsusi qeyd edir: "Demokratikləşmə eyforiyası bir tərəfdən dini etiqad azadlığına gətirib çıxarmış, digər tərəfdən isə ölkənin milli təhlükəsizliyinə qorxu yaratmışdır". Azərbaycanda dövlət dindən ayrı olsa da, həqiqi dini hisslərə həmişə hörmətlə yanaşılır. "Müasir demokratik cəmiyyətdə dini etiqad azadlığı hər bir vətəndaşın konstitusiya hüquqlarının ayrılmaz tərkib hissəsidir. Yaradanın qüdrətinə inam insanın mənəvi, əxlaqi, psixoloji ovqatını şərtləndirir, dünyagörüşünü kamilləşdirir, təfəkkür tərzini və formasını tənzimləyir" ("Azərbaycan" qəzeti, 24 sentyabr 2007).

Dini hiss universal əqli keyfiyyətlərdən daha çox mənəviyyat hadisəsidir və insan Mən-inin dərin qatlarını ifadə etməklə yanaşı, lokal mədəni-mənəvi mühitlə, hətta fərdi mövcudluqla əlaqədardır. Digər dinlərdən fərqli olaraq, islam dini eyni zamanda bir şəriət, həyat tərzi kimi də çıxış edir və bəzən ictimai münasibətlərdə də bələdçi olur.

Dini duyğu insani mahiyyətlə bağlı olduğu üçün daha dərin və qədim köklərə malikdir. C.Əfqaninin yazdığına görə, "insanın ilk tərbiyəsi onun dini tərbiyəsidir, fəlsəfi dünyagörüşü sonra yaranır". Lakin fəlsəfi düşüncənin formalaşmasında dini hissin böyük rolu var.

Dini etiqad baxımından müasir Azərbaycan cəmiyyətinin strukturuna nəzər salsaq, hələ də dinə etinasız olanların nisbi çəkisinin çox yüksək olduğunu müşahidə etmək olar. Formal olaraq müsəlman sayılan əhalinin tərkibində dini inam dərəcələri çox fərqlidir.

Yetmiş illik sovet dövründə əhalinin böyük əksəriyyətinin savadlanması, fanatizmin və mövhumatçılığın əsasən aradan qaldırılması postsovet ölkələrində dini etiqadın az qala sıfırdan başlanmasına uyğun gəlir ki, bu da müstəqillik dövründə dinə düşünülmüş münasibət bəslənməsinə, etiqadın şüurlu surətdə seçilməsinə imkan yaradırdı.

O vaxtlar postsovet məkanında, o cümlədən Azərbaycanda daha sağlam və mütərəqqi dini modelin formalaşması üçün böyük imkan var idi. Lakin təəssüf ki, dövlət müstəqilliyinin ilk illərində, ümumi ictimai-siyasi xaos şəraitində dini etiqada şüurlu münasibət və onun elmi-fəlsəfi şüurla həmahəng inkişafı kimi məsələlər diqqət mərkəzinə çəkilmədi. Əhalinin "dinə qayıdışı" onun daha yüksək intellektual səviyyəsi olan nümayəndələrinin məqsədyönlü iştirakı ilə, dərk olunmuş bir proses kimi həyata keçə bilmədi. Və dinə qayıdılması tam bir kortəbiilik şəraitində, daha çox dərəcədə xarici missionerlərin səyləri və "yardımı" ilə həyata keçdi. Dinə qayıdış adı altında mövhumata, xurafata, təriqətçiliyə də qayıdış baş verdi ki, indi dinin bir daha bu psevdo dini elementlərdən təmizlənməsinə ehtiyac yaranmışdır və bu, elə də asan məsələ deyil.

Bununla belə, Azərbaycan əhalisinin yenə də böyük bir qismi dünyəvilik mövqeyində dayandığından və din adı altında hər hansı bir təriqətə və ya mövhumatçılığa, mərasimçiliyə uyduğundan bu bazada müasir Azərbaycan ictimai və mədəni-mənəvi gerçəkliyi üçün ən çox məqbul olan dini etiqad modelinin formalaşdırılması hələ də mümkündür.

Yüz minlərlə uşaqların və gənclərin təhsil mərhələsində əhatə olunduğunu nəzərə alsaq, gənc nəslin yeni dünyagörüşünün əlahiddə təsirlərdən uzaq, məhz həqiqi dini zəmin üzərində formalaşdırılması üçün böyük potensial imkanlar vardır.

**Heç nəyə inanmamaq, müqəddəs heç nə tanımamaq nə dərəcədə təhlükəlidirsə, nəyi isə fetişləşdirmək də bir o qədər təhlükəlidir.**

Sadələşmiş din modeli... Ancaq yerin-göyün və bütün bəşəriyyətin fövqündə duran, sonsuz əbədi-əzəli varlığa - Allaha pərəstiş etmək olar. Heç olmazsa ona görə ki, bu dünyada Allahın ehtiva etmədiyi heç nə yoxdur.

Allaha pərəstiş insanı alçalda bilməz, yüksəldir. Allahın bütün yaratdıqları əslində bərabər hüquqlu tərəflərdir.

Hər hansı bir cismani varlığın mütləqləşdirilməsi bütpərəstlik əlaməti olaraq rədd edildiyi kimi, hər hansı bir insanın da fikirlərinin ilahiləşdirilməsi, mütləqləşdirilməsi yolverilməz haldır. Bu dünyada nəyinsə (kiminsə) fövqəlləşdirilməsi yerdə qalan hər şeyə qarşı çıxmağa "əsas" verir. Qalan hər şey kiçildilir, alçaldılır, dəyərsizləşir.

Birinin mütləq təsdiqi başqalarının inkarına gətirir və qarşıdurma yaradır. Ancaq Allaha inam nəyinsə inkarına gətirmir, kin-küdurət yaratmır. Niyə? Çünki Allah hər şeyi ehtiva edir. Allaha məhəbbət hər hansı bir insana qarşı kini istisna edir.

Bu prinsip xristianlıq fəlsəfəsində daha bariz şəkildə ifadə olunmuşdur. Başqa sözlə desək, xristianlar bu ideyanı daha çox təbliğ edir və "özününküləşdirirlər". Halbuki bu - bütün dinlərin mahiyyətindən irəli gəlir. Qurani-Kərimdə də deyilir: "O kəslər ki,

pisliyin qarşısını yaxşılıq etməklə alırlar - onları axirət yurdunun gözəl aqibəti gözləyir" (13-22).

**Din cəmiyyət üçün yox, insan üçündür. Ayrıca götürülmüş hər bir insanın düzgün mənəvi-əxlaqi meyarlar seçə bilməsi, digər insanlara münasibətdə yüksək mənəvi prinsiplərdən çıxış etməsi üçün dinin rolu əvəzsizdir.**

Dinin sosial təşkili, dini institutların yaradılması ancaq dini ideyaların təbliğ olunması, dindarlara öz dini biliklərini zənginləşdirmək, Allahla ünsiyyətdə olmaq, dua etmək, mənəviyyatını təkmilləşdirmək və s. üçün şərait yaradılmasına xidmət edir. Həmin sosial institutların, dini məbədlərin və s. fəaliyyətini təmin etmək üçün peşəkar din xadimləri, ruhanilər hazırlanıb yetişdirilir, bu məqsədlə müxtəlif səviyyəli dini məktəblər fəaliyyət göstərir.

Dini sosial qurumlar cəmiyyətin mikrostrukturunda miqyasca kiçik yer tutsalar da, müəyyən müstəqilliyə, muxtariyyətə malikdirlər. Konstitusiyada da təsbit olunduğu kimi, din ilə dövlət bir-birindən ayrıdır. Lakin bu ayrılıq ancaq hüquq müstəvisində mütləq xarakter daşıyır. Siyasət və ideologiya müstəvisində bu ayrılığın mütləqləşdirilməsi mümkün deyil. Siyasətlə məşğul olan, ideoloji konsepsiyalar hazırlayan insanlar, millət vəkilləri və s. bu və ya digər dinə qulluq etməsindən və ya ümumiyyətlə, dinə münasibətindən asılı olaraq müxtəlif mövqelərdə dura bilərlər. Başqa sözlə, din siyasətə müstəqil sosial subyekt kimi deyil, siyasətin formalaşmasında iştirak edən şəxslərin dünyagörüşü vasitəsilə təsir göstərə bilər.

Bununla belə, müasir dövrdə də din bəzən ideologiyaya çevrilir və siyasətdə aparıcı rol oynayır. Son zamanlar islam dini də bu missiya ilə çıxış edir. İranda və Əfqanıstanda baş verən hadisələr buna ən yaxşı misaldır. Azərbaycanda da islam dini ilə bağlı təbliğat bəzən öz əsas missiyasından uzaqlaşaraq ideya siyasi yön almağa təşəbbüs göstərir. İndi ədəbi-bədii fikir sahiblərinin, jurnalistlərin ən çox meyl etdikləri "ideoloji modellər" XX əsrin əvvəllərində türk ideoloqları və müsavatçıların irəli sürdüyü "türkçülük, islamçılıq, müasirlik" şüarının müxtəlif modifikasiyalarından ibarətdir.

Və bunların hamısında "islamçılıq", "islamlaşmaq" ideyası mərkəzi yerlərdən birini tutur. Azərbaycan müstəqillik əldə etdikdən sonra xalqın sovet ideologiyasının təsiri ilə icbari yolla imtina etmiş olduğu dini dəyərləri qaytarmaq təşəbbüsü, heç şübhəsiz, təqdirəlayiq bir hadisədir. Həm də nəzərə alsaq ki, islam bizim üçün əsrlər boyu təkcə əqidə deyil, həm də əxlaq, adət-ənənə, hətta düşüncə tərzinin formalaşmasının əsas mənbələrindən biri olub, ona qayıtmağın bizim üçün necə mühüm bir hadisə olduğunu təsəvvür etmək çətin deyildir. Məhz buna görədir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev dinin mənəviyyatda rolunun artmasını ölkəmizin inkişaf strategiyasının vacib istiqamətlərindən biri hesab edir: "Heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq".

Bəziləri millətlə dinin müxtəlifliyinə istinad edərək bunlar arasında ancaq fərqi görməyə çalışırlar. Bizcə, Azərbaycanda neçə əsrlərdən bəri yaşayan xalqların ümumi mənəviyyat, adət-ənənə və həyat tərzi sayəsində vahid "azərbaycanlı" adı altında birləşməsində islam dininin rolu az olmamışdır.

Bütün bunlar müasir Azərbaycan milli şüurunda, ictimai psixologiyasında dinin həqiqətən mühüm yerlərdən birini tutduğunu göstərir. Bəs onda dinin fəal siyasi və ideoloji mövqeyi nəyə görə yolverilməz hesab olunur. İlk növbədə ona görə ki, hər şey öz yerində olanda gözəldir.

**Azərbaycan artıq öz strateji yolunu seçmişdir və psevdodini təlimlərin dinin nüfuzundan istifadə edərək din bayrağı altında siyasətə müdaxilə etmək təhlükəsi Konstitusiya səviyyəsində, hüquqi yolla aradan götürülmüşdür. Bəs onda belə təşəbbüslərin qorxulu cəhəti nədən ibarətdir? Qorxulu cəhət əsl dinin psevdodini təlimlərlə, ideoloji məzmunla əvəz olunması və dinin öz həqiqi miqyasından uzaqlaşmasıdır. Biz dinin ideoloji aktivliyindən, siyasi müdaxiləsindən daha çox həqiqi dini itirməkdən qorxuruq.**

Çünki sovet dövründə hər cür dinin inkar olunması insanların mənəviyyatında bir boşluq yaratmışdı və kommunist rejiminin uğursuzluğunun səbəblərindən biri cəmiyyət miqyasında mükəmməl ideoloji sistem yaratmaqla yanaşı, fərdi mənəvi aləmdəki boşluğa dini əvəz edə biləcək layiqli alternativ tapa bilməməsi idi. İndi din aşkar şəkildə inkar olunmasa da, bu boşluğu həqiqi dindən kənar fanatizm, xurafat, təriqətçilik, psevdodini məzmunla doldurmaq təşəbbüsü daha ağır nəticələr verə bilər.

Bir daha yada salmaq istərdik ki, dinin əsl məramı insan mənəviyyatını ülvi duyğularla zənginləşdirməkdir. Din fərdi mənəviyyatı yaddan çıxarıb sosial qurumlar, təsisatlarla məşğul olduqda o, dinlikdən çıxır, başqa bir şeyə çevrilir. İnsanlar isə yenə də dinə möhtac qalırlar. Xüsusən kommunist ideologiyasından imtina etmiş bir xalq bu boşluğun yerini nə iləsə doldurmağa ehtiyac hiss etdiyi bir vaxtda dinçilik də, millətçilik də, Qərbçilik də və hətta bazar iqtisadiyyatına sürətli keçidin təsiri ilə baş alıb gedən "alver psixologiyası" da ideologiyada mərkəzi yer tutmaq iddiasında ola bilər. Və bu problem ciddi surətdə tədqiq olunmalıdır.

**Bəs əslində din ideologiyanın strukturuna daxil olmalıdırmı və əgər olmalıdırsa, burada nə kimi yer tutmalıdır. Bizcə, ideologiya ayrıca fərdlərin ruhu, mənəviyyatı haqqında yox, cəmiyyətin siyasi təşkili, optimal siyasi-iqtisadi strukturu və ictimai həyatda mədəni-mənəvi meyarlar haqqında təlim, ideyalar sistemi olduğundan burada nə din, nə də milli spesifiklik mərkəzi yer tuta bilməz. Din və millətlə əlaqə əsasən sonrakı mərhələdə - ictimai müstəvidən fərdi müstəviyə keçəndə ortaya çıxır.**

Cəmiyyətin elə təşkilati strukturu, elə ictimai dəyərlər və meyarlar sistemi optimal sayıla bilər ki, şəxsi mənafe ilə ictimai mənafe, əxlaqla hüquq arasında ciddi ziddiyyət ortaya çıxmasın, insanların vicdan azadlığı hər hansı formada məhdudlaşdırılmasın. Bu baxımdan dövlət siyasəti və hüquq normaları, qanun məcəllələri işlənib hazırlanarkən onların əhalinin dini və milli hissləri ilə uzlaşması, ahəngdarlığı məsələsi nəzərə alınmalıdır.

Xüsusən islam dininin özünəməxsus hüquq sistemi (müsəlman hüququ - şəriət) olduğundan bizim ölkədə ilk növbədə dünyəvi prinsiplər əsasında hazırlanan hüquq normaları və qanunlar şəbəkəsi müəyyənləşərkən şəriətin də imkan daxilində nəzərə alınması və əmələ gələn uyğunsuzluqların, ziddiyyətlərin minimuma endirilməsi vacib şərtlərdən biridir.

Yeni cəmiyyətin inkişaf strategiyası, sosial ideal elə seçilməlidir ki, o, adamların mənəvi idealı və əqidəsi ilə ahəngdar ola bilsin. Lakin burada yeganə məqbul metod - deduktiv metoddur. Adamların hər birinin istək və arzularının, şəxsi mənafelərin, dini və milli hisslərin toplanmasından cəmiyyətin optimal modeli hasil ola bilməz. Əksinə, ümumi ictimai inkişaf qanunauyğunluqlarının öyrənilməsindən hasil edilən cəmiyyət modeli, sosial ideal və ona çatmaq üçün həyata keçirilən siyasi, iqtisadi və hüquqi islahatlar sistemi ilkin olaraq müəyyənləşdirilir.

Çox vaxt Avropa ölkələrinin elm və texnologiya sahəsində inkişaf etməsi, islam dünyasının isə müqayisədə geri qalması faktından çıxış edərək bunu xristianlıq və islam dini ilə əlaqələndirməyə çalışırlar. Elmi təhlil əvəzinə ideologiyalaşdırılmış, psevdoelmi mülahizələr söylənməsinə tez-tez rast gəlmək olur. Lakin XX əsrin Parsons, Xantinqton kimi görkəmli sosioloqlarının da bəzən belə mövqedən çıxış etməsi təəccüb doğurmaya bilmir.

Əslində, xristianlığın da, islamın da elmə münasibəti yaxşı məlumdur. Xristianlıq yarandığı vaxtdan azadfikirliliyin və elmi tədqiqatın əleyhinə olmuşdur. Xüsusən, xristianlıq sosial bir hadisə kimi formalaşdıqdan sonra din xadimləri özlərinin cəmiyyətdəki mövqeyini qoruyub saxlamaq üçün onların ehkamlarından kənar hər nə varsa qanundankənar və qəbahət hesab etmişlər. İnkvizisiya məhz xristianlığın törəməsidir.

İslam isə yarandığı vaxtdan nəinki elmə qadağa qoymuş, hətta insanları elmi fəaliyyətə sövq etmişdir. İslam dini öz təsir dairəsini də daha konkret müəyyənləşdirmiş, insanların mənəvi aləmi və həyat tərzini müəyyən etməyə çalışmaqla, onların peşə və ixtisas fəaliyyətlərinə bilavasitə nüfuz etməyə çalışmamışdı. Məhz buna görə də islamın yarandığı və yayıldığı ilk əsrlərdə elm sürətlə inkişaf etmiş və əvvəlcə ərəb ölkələri, sonra isə bütün islam dünyası elmin inkişaf səviyyəsinə görə dünyada ən qabaqcıl mövqe tutmuşlar.

**Böyük din xadimləri eyni zamanda böyük elmi kəşflər etmiş, elmin bir sıra sahələrini inkişaf etdirmişlər. Əl-Kindi, Fərabi, Biruni, Ömər Xəyyam, İbn Sina, Nəsirəddin Tusi, İbn Ruşd, Uluğ bəy və başqaları riyaziyyatın, astronomiyanın, mexanikanın, fiziologiyanın, təbabətin, fizikanın, kimyanın inkişafında misilsiz xidmətlər göstərmiş və bir çox sahələrdə müasir elmin təməlini qoymuşlar. Bu həmin dövr idi ki, Roma imperiyasında xristianlıq qəbul olunduqdan sonra elm və mədəniyyətin, texnologiyanın inkişafında minillik bir pauza yaranmışdır və antik elmin və mədəniyyətin estafetini ərəblər əllərinə götürmüşdür.**

Ancaq xristianlığın yaranmasından 1400 il, islamın yaranmasından isə 700 il keçdikdən sonra dünyada elmi-texniki inkişafın, sivilizasiyanın gedişatında yeni bir dönüş yaranmağa başladı. Bu, Avropada renessans dövrü idi. XV-XVI əsrlərdə Avropa xristianlığın ehkamları ilə daban-dabana zidd yeni düşüncə tərzinə sahib olmuşdur. İnkvizisiya ilə azadfikirliliyin iki-üç əsrlik qanlı mübarizəsi, nəhayət ki, elm və dinin bir-birindən ayrılmasına və yeni düşüncənin, yeni Avropanın doğulmasına gətirib çıxartdı. Yeni Avropanın təməlçilərindən biri olan Frensis



18400
M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

Bekon artıq xristian ideoloqu deyildir. Avropada xristian ehkamlarından kənarda tamamilə müstəqil bir həyat başlanırdı. Xristianlıq isə daha çox dərəcədə simvolikləşdirilərək ayrı-ayrı şəxslərin vicdan işi kimi məhdud dairəyə salınmış, dövlət işindən və ictimai tərəqqinin aparıcı xəttindən uzaqlaşdırılmışdır.

Məhz elmin dindən azad olaraq tam müstəqil ictimai hadisə kimi formalaşması, insanların ikiləşməsi və elmə münasibətlə dinə münasibəti öz daxillərində ayrı-ayrılıqda yaşatması, elmin tam azad inkişafı üçün meydan açan amillərdən biri oldu. Şərqdə isə din elmə aşkar şəkildə mane olmadığından, onlar hələ də birlikdə addımlayır. Məhz islam dininin elmə qarşı loyallığı, liberallığı, dözümlülüyü elmin uzun əsrlər boyu dinin təsir dairəsində qalmasına imkan yaratmışdır.

**Dində düşməni görməyən elm onun sərhədlərindən çox da kənara çıxmağa ya çalışmırdı, ya da... Bəli, nə qədər paradoksal görünsə də, Şərqdə elmin geniş asfalt yola çıxa bilməməsinin səbəbi islamın elmə düşmən mövqeyi deyil, əksinə, yaxşı münasibət bəsləməsi idi. Və bu yaxşı münasibət elmin dindən tamamilə imtina edərək yeni sürət yoluna çıxmasına imkan verməmişdir. Elm mahiyyəti etibarilə dindən fərqli bir hadisədir. O, dinə zidd deyil, sadəcə olaraq, dindən fərqli bir müstəvidədir. Əslində, onlar bir-birinə qarşı dayanmamalıdır, çünki onların yolu kəsişmir, toqquşmur.**

Elm ilə din arasında ziddiyyət, qarşıdurma o zaman yaranır ki, elm öz yolundan kənara çıxaraq inamı əvəz etmək istəyir, Allahın varlığını və ya yoxluğunu isbat etmək iddiasına düşür. Digər tərəfdən, din də o zaman elmə qarşı çıxır ki, özünün bir inam hadisəsi olduğunu unudaraq universal idrak hadisəsi kimi çıxış etməyə çalışır və dünyada gedən proseslərin izahını vermək iddiasına düşür.

Bəli, idrak və inamın hər biri öz işi ilə məşğul olduqda gözəldir. Başqasının sahəsinə keçdikdə isə mürtəceləşir. Bəlkə də öz mahiyyətlərinə istinad etsəydilər, nə elm dinin işinə, nə də din elmin işinə qarışardı. Lakin onlar sosial hadisəyə çevrildikdən sonra həmin sosial qurumları təmsil edən insanların mənafeləri, şəxsi maraqları bu qarşıdurmanın yaradılmasına gətirib çıxarmışdır... Bu prosesləri istər sosial, istərsə də qnoseoloji müstəvidə izah etmək çətin deyil. Lakin nə üçünsə hələ də müsəlman ölkələrində müəyyən ideoloqlar həyatın bütün sahələrini dinlə əvəz etməyə çalışır, dini insanın fərdi mənəviyyatından kənara çıxararaq sosiallaşdırır, siyasiləşdirir, ideologiyalaşdırırlar... Bir sözlə, dini öz şəxsi maraqları üçün alətə çevirirlər. Qərbdə də dövlətin və elmin dinlə əlaqəsini çoxdan kəsdiyi bir cəmiyyətdən belə ideoloqlar çıxır ki, onlar öz tərəqqilərinin səbəbini öz dinlərində, başqalarının geriliyinin səbəblərini isə onların dinində "axtarırlar".

Bizcə, indiki dövrdə dinlərin ideoloji və siyasi məqsədlər üçün istifadə olunmasının, onların elmi və fəlsəfəni "əvəz etmək" cəhdlərinin qarşısını almaq çox vacibdir.

Fəlsəfənin predmeti dünyadan kənara çıxır və özünü mənəvi bir varlıq olaraq dünyadan ayırmış insanın dünya ilə münasibətini əks etdirir. Elm obyektiv dünyanı, insansız (mənsiz, mənəvi faktorsuz) dünyanı öyrəndiyi halda, fəlsəfə məhz insanlı dünyanı, insaniləşmiş, rəmziləşmiş dünyanı öyrənir. İncəsənət də dünyanı ifadə edir, bədii obrazlarla, rəmzlərlə əks etdirir. Lakin burada söhbət elmdəki mənada inikasdan deyil, ideya-estetik yaşantıdan gedir. Bütün bu sahələr insana birbaşa yox, dolayısı ilə təsir edir.

Din isə insanın məqsədini, həyatın mənasını bilavasitə təlqin edir. Dini dəyərlərin isbata ehtiyacı yoxdur. Burada həqiqət hissi təcrübə, məntiqi təfəkkür və ya bədii obraz vasitəsilə deyil, qəlbin nuru, mənəvi işıqlanma ilə açılır.

**Fəlsəfə ilə dinin məqsədi eynidir, amma birinci idrak, ikinci inam üzərində qərar tutur. Məhəmməd İqbal yazır: "Din qətiyyətlə qəbul edildiyi və tam mənası ilə qavrandığı təqdirdə xarakter və mənliyi büsbütün dəyişdirə biləcək həqiqətlər sistemidir".**

**Türk tədqiqatçısı professor Murtaza Korlaelçi Hegelə istinadən yazır: "Din var olmaq üçün fəlsəfəyə möhtac deyildir. Fəqət Hegelin dediyi kimi fəlsəfə ruhu bilgi ilə, dini həqiqəti zəka ilə uzlaşdırmaq üçün özünü dinə qatmağa məcburdur". Çünki din insanın bilavasitə mahiyyətini, həyatının mənasını müəyyən edir...**

● **Səlahəddin XƏLİLOV,**
***AMEA-nın müxbir üzvü,***
***professor***

*Davamı növbəti sayımızda*



M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası